$$,\Delta_{B_{k,n}} = \sum_{i=1}^{n} \frac{\partial^2}{\partial x_k^2} + \sum_{i=1}^{k} \frac{\gamma_i}{x_i} \frac{\partial}{\partial x_i},\ \gamma_i > 0,\ 1 \le k \le n .$$

Klassik haldan fərqli olaraq tədqiqat obyekti adi $\tau^h,\ h \in R^n$ ($\tau^h \varphi(x) = \varphi(x-h)$ sürüşmənin doğurduğu bürümə operatorları deyil,

9 Стейн И. Сингулярные интегралы и дифференциальные свойства функций. М.:Мир, 1973, 342 с.

10 Самко С.Г. Гиперсингулярные интегралы и их приложения. Изд. Ростовского ун.-та, 1984, 208 с.

11 Rubin B. Fractional integrals and potentials. Addison Wesley Longman Limited, Essex, 1996.

Furye –Bessel çevirməsinə uyğun ümumiləşmiş sürüşmənin ($B_{k,n}$ - sürüşmə) doğurduğu bürünmə operatorlarıdır.

İ.A. Kipriyanov, L.A. İvanov[12] göstərmişdir ki,

$$u(x) = \int_{R^n_{k,+}} |y|^{2-n-|\gamma|} T^y f(x) (y')^{\gamma} dy$$

$B_{k,n}$ -həcm potensialı

$$\Delta_{B_{k,n}} u(x) = f(x),$$

sinqulyar diferensial tənliyin həllidir, burada

$R^n_{k,+} = \{x = (x_1, \ldots, x_n) \in R^n;\ x_1 > 0, x_2 > 0, \ldots, x_k > 0\}$,

$y' = (y_1, \ldots, y_k) \in R^k_+$.

Bu məsələnin həlli $B_{k,n}$ -sürüşmə operatorunun doğurduğu bürümə operatoru ilə ifadə edilir. Belə ki, bir ölçülü halda bu sürüşmə operatoru B.M.Levitan[13] daxil etmiş və bu operatoru ümumiləşmiş sürüşmə operatoru və ya Bessel sürüşməsi adlandırmışdır (ÜSO). J.Delsart[14], J-L.Lions, B.M.Levitan və s. işləri ümumiləşmiş sürüşmə operatorlar metodunun geniş tətbiq olunmasına imkan yaratmışdır. Hiperbolik tipli tənliklər üçün bu istiqamətdə mühüm nəticələr İ.A.Kipriyanov, L.A.İvanov tərəfindən alınmışdır.

Yuxarıdakı məsələnin həllinin $B_{k,n}$ -həcm potensialı şəklində olması bu kimi bəzi sinqulyar diferensial tənliklərin həlli üçün $B_{k,n}$ - potensialın müxtəlif xassələrini öyrənməyin zəruriliyini göstərir.

Dissertasiya işində $B_{k,n}$ - maksimal və kəsr maksimal operatorun, $B_{k,n}$ Riss potensialının və $B_{k,n}$ - sinqulyar inteqral operatorun $L_{p,w,\gamma}(R^n_{k,+})$ çəkili Lebeq fəzalarında məhdudluğu məsələlərinə baxılmışdır. Həmçinin dissertasiyada p-tipli $B_{k,n}$ - sinqulyar operator

12 Киприянов И.А., Иванов Л.А. Получение фундаментальных решений для однородных уравнений с особенностями. Труды семинара С.Л.Соболева, № 1, Новосибирск, 1983г., с. 55-77.

13 Левитан Б.М. Разложение по функциям Бесселя в ряды и интегралы Фурье. УМН, 1951, т.6, №2, с.102-143.

14 Delsarte J. Sur une extension de la formule of Taylor. J.Math.Pure appl., 1938, v.17, no.9, p.219-231.

və $(p,q)-$tipli $B_{k,n}$- potensial operatorlar üçün $L_{p,w,\gamma}\left(R^n_{k,+}\right)$ çəkili Lebeq fəzalarında ikiçəkili bərabərsizliklər isbat edilmişdir.

İşin məqsədi. $B_{k,n}$-maksimal və kəsr maksimal operatoru, $p-$tipli $B_{k,n}$-sinqulyar operatoru, $(p,q)-$tipli $B_{k,n}$-potensial operatoru çəkili $L_{p,w,\gamma}\left(R^n_{k,+}\right)$ fəzalarında tədqiq etmək.

Ümumi tədqiqat üsulları. Dissertasiya işində inteqral operatorlar nəzəriyyəsinin, harmonik analizin, funksional fəzalar nəzəriyyəsinin və funksional analizin metodlarından istifadə edilmişdir.

Elmi yenilik. İşdə aşağıdakı yeni nəticələr alınmışdır:

- $B_{k,n}$-kəsr- maksimal operatorun çəkili $\left(L_{p,\omega,\gamma}, L_{q,\omega,\gamma}\right)-$ məhdudluğu isbat edilmişdir, $1/p-1/q=\alpha/(n+|\gamma|)$.
- $B_{k,n}$-Riss potensialı üçün Velland tipli bərabərsizliyin anoloqu alınmışdır.
- $p-$tipli $B_{k,n}$-sinqulyar operatorun Makenxaupt sinifindən olan çəkilər üçün çəkili $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega,\gamma}\right)-$ məhdudluğu isbat edilmişdir.
- $p-$tipli $B_{k,n}$-sinqulyar operator üçün ikiçəkili $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega_1,\gamma}\right)$ bərabərsizliyi alınmışdır.
- $p-$tipli $B_{k,n}$-sinqulyar operator üçün ikiçəkili zəif $\left(L_{1,\omega,\gamma}, WL_{1,\omega_1,\gamma}\right)$ bərabərsizliyi alınmışdır..
- $(p,q)-$tipli $B_{k,n}$-potensial operatoru üçün ikiçəkili $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega_1,\gamma}\right)$ bərabərsizliyi alınmışdır.
- $(p,q)-$tipli $B_{k,n}$-potensial operatoru üçün ikiçəkili zəif $\left(L_{1,\omega,\gamma}, WL_{q,\omega_1,\gamma}\right)$ bərabərsizliyi alınmışdır.

Nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya işi nəzəri xarakter daşıyır. Alınmış nəticələr çəkili fəzalarda $\Delta_{B_{k,n}}$ elleptik tənliyinin həllinin aprior qiymətləndirilməsində, həmçinin riyazi fizikanın və mexanikanın bəzi məsələlərində istifadə oluna bilər. Dissertasiyada alınan nəticələr potensiallar və sinqulyar inteqrallar nəzəriyyəsində yenidir.

İşin aprobasiyası. Dissertasiyadakı əsas nəticələr AMEA RMİ-nin «Riyazi analiz» şöbəsinin seminarında (rəhbər AMEA-nın müxbir üzvü, prof. V.S. Quliyev), «Qeyri -harmonik analiz » şöbəsinin seminarında (rəhbər AMEA-nın müxbir üzvü, prof. B.T.Bilalov), «Funksional analiz» şöbəsinin seminarında (rəhbər f-r.e.d, prof. H.İ. Aslanov), «Funksiyalar nəzəriyyəsi» şöbəsinin seminarında (rəhbər f-r.e.d. V.E.İsmayılov), BDU-nun «Riyazi analiz» kafedrasının seminarında (rəhbər f-r.e.d, prof. S.K. Abdullayev), həmçinina akad. İ.İ.İbrahimovun 100- illik yubleyinə həsr olunmuş riyaziyyat və mexanika üzrə respublika konfrasında (2012), V.İ.Burenkovun 70-illik yubleyinə həsr olunmuş «Operators in Morrey-type Spaces and Applications» beynəlxalq konfransda (2011, Kırşehir, Türkiyə) məruzə edilmişdir.

Nəşrlər. Müəllifin avtoreferatın sonunda qeyd olunmuş 7 elmi işində dissertasiyanın tam məzmunu öz əksini tapmışdır.

İşin həcmi və strukturu. Dissertasiya işi giriş, iki fəsil və 124 ədəbiyyat siyahısından təşkil olunmuşdur. Dissertasiyanın həcmi 124 səhifədən ibarətdir.

DİSSERTASİYANIN MƏZMUNU

Girişdə dissertasiya işinin aktuallığı əsaslandırılmış, onun məqsədi qeyd olunmuş, dissertasiya ilə bağlı işlərin qısa xülasəsi və eləcə də dissertasiyanın qısa məzmunu verilmişdir.

Dissertasiyanın birinci fəsli altı paraqrafdan ibarətdir.

Birinci fəsildə $M^{\alpha}_{B_{k,n}}$ $B_{k,n}$-kəsr-maksimal operatorun çəkili $\left(L_{p,\omega,\gamma}, L_{q,\omega,\gamma}\right)-$məhdudluğu, $I^{\alpha}_{B_{k,n}}$ $B_{k,n}$-Riss potensialı üçün Velland tipli bərabərsizliyin anoloqu alınmışdır $(1/p-1/q=\alpha/(n+|\gamma|))$, $p-$tipli $B_{k,n}$-sinqulyar operatorun Makenxaupt sinifindən olan çəkilər üçün çəkili $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega,\gamma}\right)-$məhdudluğu isbat edilmişdir.

1.1-də ümumi məlumatlar: işarələmələr, təriflər və zəruri faktlar verilmişdir.

1.2-də olan nəticələri qeyd etməzdən əvəl bəzi zəruri işarələmələri və anlayışları daxil edək.

R^n-də skalyar hasili $x\cdot\xi=x_1\xi_1+\ldots+x_n\xi_n$, normanı $|x|=(x\cdot x)^{1/2}$ kimi götürək. $x=(x',x'')$, $x'=(x_1,\ldots,x_k)\in R^k$, $x''=(x_{k+1},\ldots,x_n)\in R^{n-k}$,
$E(x,r)=\left\{y\in R^n_{k,+}; |x-y|<r\right\}$, $R^k_{+,+}=\left\{x\in R^k; x_1>0, x_2>0,\ldots,x_k>0\right\}$,

${}^{C}E(x,r)=R^n_{k,+}\setminus E(x,r)$ ilə biz tamamlayıcı çoxluğu işarə edəcyik. $E'(x',r)=\{y'\in R^k_{+,+};|x'-y'|<r\}$, ${}^{C}E'(x',r)=R^k_{+,+}\setminus E'(x',r)$, $\gamma=(\gamma_1,\ldots,\gamma_k)$, $\gamma_1>0,\gamma_2>0,\ldots,\gamma_k>0$, $|\gamma|=\gamma_1+\ldots+\gamma_k$, $(x')^{\gamma}=x_1^{\gamma_1}\cdot\ldots\cdot x_k^{\gamma_k}$. Tutaq ki, $S_{k,+}=\{x\in R^n_{k,+};|x|=1\}$. Ölçülən $E\subset R^n_{k,+}$ çoxluğu üçün, $|E|_{\gamma}=\int_E (x')^{\gamma}dx$, belə ki, $|E(0,r)|_{\gamma}=\omega(n,k,\gamma)r^{n+|\gamma|}$, $\omega(n,k,\gamma)=|E(0,1)|_{\gamma}$.

Sanki hər yerdə müsbət və lokal inteqrallanan $\omega:R^n_{k,+}\to R$ funksiyasını çəki funksiyası adlandıracağıq. $L_{p,w,\gamma}(R^n_{k,+})$ ilə $R^n_{k,+}$-da elə ölçülən f funksiyalar çoxluğunu işarə edəcəyik ki, bu f funksiyasının norması

$$\|f\|_{L_{p,\omega,\gamma}(R^n_{k,+})}\equiv\|f\|_{p,\omega,\gamma}=\left(\int_{R^n_{k,+}}|f(x)|^p\omega(x)(x')^{\gamma}dx\right)^{\frac{1}{p}},\ 1\le p<\infty$$

sonlu olsun. $\omega=1$ olduqda, $L_{p,w,\gamma}(R^n_{k,+})$ fəzasını $L_{p,\gamma}(R^n_{k,+})$ kimi işarə edəcəyik, bu halda norma $\|f\|_{L_{p,1,\gamma}(R^n_{k,+})}\equiv\|f\|_{L_{p,\gamma}(R^n_{k,+})}$ kimi təyin edilir .

$B_{k,n}$ ümumiləşmiş sürüşmə operatorunu aşağıdakı kimi təyin edilir:

$$T^y f(x)=C_{\gamma,k}\int_0^{\pi}\cdots\int_0^{\pi}f\left((x',y')_{\beta},x''-y''\right)d\nu(\beta),$$

$$C_{\gamma,k}=\pi^{-\frac{k}{2}}\Gamma^{-1}\left(\frac{|\gamma|}{2}\right)\prod_{i=1}^{k}\Gamma\left(\frac{\nu_i+1}{2}\right),\ (x',y')_{\beta}=\left((x_1,y_1)_{\beta_1}\ldots(x_k,y_k)_{\beta_k}\right),$$

$$(x_i,y_i)_{\beta_i}=\left(x_i^2-2x_iy_i\cos\beta_i+y_i^2\right)^{\frac{1}{2}},\ 1\le i\le k,\ d\nu(\beta)=\prod_{i=1}^{k}\sin^{\gamma_i-1}\beta_i d\beta_i,$$

$1\le k\le n$.

Qeyd edək ki, bu sürüşmə operatoru $B_{k,n}$ Laplas-Bessel sinqulyar differensial operatoru ilə sıx bağlıdır.

1.2-də ümumiləşmiş Bessel sürüşmə operatorunun vasitəsi ilə maksimal və kəsr-maksimal funksiya tədqiq edilir.

$B_{k,n}$-maksimal funksiyanı və $B_{k,n}$-kəsr-maksimal funksiyanı təyin edək:

$$M_{B_{k,n}}f(x)=\sup_{r>0}\frac{1}{\omega(n,k,\gamma)r^{n+|\gamma|}}\int_{E(0,r)}T^y|f(x)|(y')^{\gamma}dy,$$

$$M^{\alpha}_{B_{k,n}}f(x)=\sup_{r>0}\frac{1}{\omega(n,k,\gamma)r^{n+|\gamma|-\alpha}}\int_{E(0,r)}T^y|f(x)|(y')^{\gamma}dy,$$

$$0\le\alpha<n+|\gamma|.$$

Qeyd edək ki, $\alpha=0$ olduqda, $M^0_{B_{k,n}}f(x)=M_{B_{k,n}}f(x)$.

Məlum A_p Makenxaupt sinifinə analoji olaraq aşağıdakı $A_{p,\gamma}$ sinifinə baxaq ($1\le p<\infty$):

Tərif 1. Əgər $1<p<\infty$ üçün,

$$\sup_{x\in R^n_{k,+},r>0}|E(x,r)|_{\gamma}^{-1}\int_{E(x,r)}\omega(y)(y')^{\gamma}dy\left(|E(x,r)|_{\gamma}^{-1}\int_{E(x,r)}\omega^{-\frac{1}{p-1}}(y)(y')^{\gamma}dy\right)^{p-1}<\infty$$

,

olarsa,deyəcəyik ki, çəki funksiyası $A_{p,\gamma}(R^n_{k,+})$ sinifinə daxildir.

Əgər istənilən $x\in R^n_{k,+}$ və $r>0$ üçün, elə C sabiti varsa ki,

$$|E(x,r)|_{\gamma}^{-1}\int_{E(x,r)}\omega^{-\frac{1}{p-1}}(y)(y')^{\gamma}dy\le C\operatorname{ess}\sup_{y\in E(x,r)}\omega(y)$$

olsun, onda deyəcəyik ki, çəki funksiyası $A_{1,\gamma}(R^n_{k,+})$ sinifinə daxildir.

Daha sonra, $B_{k,n}$-kəsr-maksimal operatorun çəkili $(L_{p,\omega,\gamma},L_{q,\omega,\gamma})$– məhdudluğu haqqında teorem isbat edilmişdir.

Teorem 1. Tutaq ki, $0\le\alpha<n+|\gamma|$, $1<p<\frac{n+|\gamma|}{\alpha}$, $\frac{1}{p}-\frac{1}{q}=\frac{\alpha}{n+|\gamma|}$. Onda aşağıdakı iki şərt ekvivalentdir:

(i) Elə C sabiti var ki, istənilən $f \in L_{p,\omega,\gamma}\left(R_{k,+}^{n}\right)$ üçün aşağıdakı bəərabərsizlik doğrudur :

$$\left(\int_{R_{k,+}^{n}}\left(M_{B_{k,n}}^{\alpha}\left(f\omega^{\frac{\alpha}{n+|\gamma|}}\right)(x)\right)^{q}\omega(x)(x')^{\gamma}\,dx\right)^{\frac{1}{q}} \le C\left(\int_{R_{k,+}^{n}}|f(x)|^{p}\omega(x)(x')^{\gamma}\,dx\right)^{\frac{1}{p}}$$

(ii) $\omega \in A_{1+\frac{q}{p'},\gamma}\left(R_{k,+}^{n}\right),\ p' = \dfrac{p}{p-1}.$

Teorem 2. Tutaq ki, $q = \dfrac{n+|\gamma|}{n+|\gamma|-\alpha}$. Onda aşağıdakı iki şərt ekvivalentdir:

(i) $$\int_{\left\{x\in R_{k,+}^{n}:\ M_{B_{k,n}}^{\alpha}\left(f\omega^{\frac{\alpha}{n+|\gamma|}}\right)(x)>\lambda\right\}}\omega(x)(x')^{\gamma}\,dx \le C\lambda^{-q}\left(\int_{R_{k,+}^{n}}|f(x)|\omega(x)(x')^{\gamma}\,dx\right)^{q},$$

C sabiti f и $\lambda > 0$ -dan asılı deyil.

(ii) $\omega \in A_{1,\gamma}\left(R_{k,+}^{n}\right)$.

Nəticə 1. Tutaq ki, $1 < p < \infty$. Onda aşağıdakı iki şərt ekvivalentdir:

(i) Elə $C > 0$ sabiti var ki, istənilən $f \in L_{p,\omega,\gamma}\left(R_{k,+}^{n}\right)$ üçün

$$\int_{R_{k,+}^{n}}\left(M_{B_{k,n}}(f)(x)\right)^{p}\omega(x)(x')^{\gamma}\,dx \le C\int_{R_{k,+}^{n}}|f(x)|^{p}\omega(x)(x')^{\gamma}\,dx.$$

bərabərsizliyi doğrudur.

(ii) $\omega \in A_{p,\gamma}\left(R_{k,+}^{n}\right)$.

Nəticə 2. Aşağıdakı şərtlər ekvivalentdir:

(i) Elə $C > 0$ var ki, istənilən $f \in L_{1,\omega,\gamma}\left(R_{k,+}^{n}\right)$ üçün

$$\int_{\{x\in E(0,r)\ M_{B_{k,n}}f(x)>\lambda\}}\omega(x)(x')^{\gamma}\,dxf \le \frac{C}{\lambda}\|f\|_{L_{1,\omega,\gamma}\left(R_{k,+}^{n}\right)},$$

bərabərsizliyi doğrudur. Belə ki, C sabiti f və $\lambda > 0$ -dan asılı deyil.

(ii) $\omega \in A_{1,\gamma}\left(R_{k,+}^{n}\right)$.

Paraqraf 1.3-də $B_{k,n}$ kəsr inteqralına baxılır:

$$I_{B_{k,n}}^{\alpha}f(x) = \int_{R_{k,+}^{n}}T^{y}|x|^{\alpha-n-|\gamma|}f(y)(y')^{\gamma}\,dy,\ 0<\alpha<n+|\gamma|.$$

Bu paraqrafda G.Welland metodundan istifadə edərək $I_{B_{k,n}}^{\alpha}f$ kəsr inteqralı üçün çəkili qiymətləndirmə isbat edilmişdir.

Teorem 3. Fərz edək ki, $1 < p < \dfrac{n+|\gamma|}{\alpha}$, $\dfrac{1}{p}-\dfrac{1}{q} = \dfrac{\alpha}{n+|\gamma|}$. Onda istənilən $f \in L_{p,\omega,\gamma}\left(R_{k,+}^{n}\right)$ üçün

$$\left(\int_{R_{k,+}^{n}}\left|I_{B_{k,n}}^{\alpha}\left(f\omega^{\frac{\alpha}{n+|\gamma|}}\right)(x)\right|^{q}\omega(x)(x')^{\gamma}\,dx\right)^{\frac{1}{q}} \le c\left(\int_{R_{k,+}^{n}}|f(x)|^{p}\omega(x)(x')^{\gamma}\,dx\right)^{\frac{1}{p}}$$

bərabərsizliyi yalnız və yalnız o vaxt doğru olar ki, $\omega \in A_{1+\frac{q}{p'},\gamma}\left(R_{k,+}^{n}\right)$ olsun, burada $c > 0$ sabiti f -dən asılı deyil.

Qeyd 1. Riss potensialı üçün, Teorem 3 B.Muckenhoupt və R.L.Wheeden[15]-nin işində alınmışdır. Yuxarıdakı nəticə G.Welland[16] tərəfindən verilmiş metodun köməyi ilə isbat olunmuşdur. Həmçinin, $k=1$ olduqda Teorem 1, 2 və 3 E.V. Quliyev[17]-in işində isbat edilmişdir.

---

[15] Muckenhoupt B., Wheeden R. Weighted norm inequalities for fractional integrals. Trans. Amer. Math. Soc. 1974, v.192, p.261-274.

[16] Welland G. Weighted norm inequalities for fractional integrals. Proc. Amer. Math. Soc. 51, no.1 (1975), p.143-148.

[9] E.V. Guliyev, Weighted inequality for fractional maximal functions and fractional integrals, associated with the Laplace-Bessel differential operator. Trans. NAS of Azerbaijan, v.26 (2006), no. 1, 71-80.

1.4-də əsas məqsəd ümumiləşmiş sürüşmə operatorunun doğurduğu sinqulyar inteqral operator ($B_{k,n}$ sinqulyar operator) üçün çəkili L_p -qiymətləndirmə almaqdır:

$$A_{B_{k,n}} f(x) = p.v. \int_{R_{k,+}^n} \frac{\Omega(\theta)}{|y|^{n+|\gamma|}} \left[T^y f(x)\right](y')^\gamma \, dy =$$

$$= \lim_{\varepsilon \to 0} \int_{R_{k,+}^n \setminus E(0,\varepsilon)} \frac{\Omega(\theta)}{|y|^{n+|\gamma|}} \left[T^y f(x)\right](y')^\gamma \, dy = \lim_{\varepsilon \to 0} A_{B_{k,n},\varepsilon} f(x), \qquad (1)$$

$\theta = {y}/{|y|}$, $\Omega(\theta)$ xarakteristik funksiya $S_{k,+}$ yarımşarda təyin olunmuşdur və

$$\int_{S_{k,+}} \Omega(\theta)(\theta')^\gamma \, d\sigma(\theta) = 0$$

«ixtisar» şərtini ödəyir.

1.4-də aşağıdakı teoremi isbat etmişik.

Teorem 4. Fərz edək ki, $B_{k,n}$ sinqulyar operatorun $\Omega(\theta)$ xarakteristikası

$$\int_{S_{k,+}} \Omega(\theta)(\theta')^\gamma \, d\sigma(\theta) = 0, \quad \sup_{\theta \in S_{k,+}} \Omega(\theta) < \infty .$$

şərtlərini ödəyir.Həmçinin ω müsbət funksiyası üçün, elə $c_1 > 0$ var ki,

$$\sup_{2^{k-2} \le |x| < 2^{k+1}} \omega(x) \le c_1 \inf_{2^{k-2} \le |x| < 2^{k+1}} \omega(x), \qquad (2)$$

$k \in Z$ və $\omega \in A_{p,\gamma}\left(R_{k,+}^n\right)$. Onda

i₁) f və ε -dan asılı olmayan elə C_1 sabiti var ki,
istənilən $f \in L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$, $1 < p < \infty$ üçün

$$\int_{R_{k,+}^n} \left|A_{B_{k,n},\varepsilon} f(x)\right|^p \omega(x)(x')^\gamma \, dx \le C_1 \int_{R_{k,+}^n} |f(x)|^p \omega(x)(x')^\gamma \, dx .$$

i₂) $L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$-da ,$1 < p < \infty$, $\lim_{\varepsilon \to 0} A_{B_{k,n},\varepsilon} f(x)$ limiti var, onu $A_{B_{k,n}} f$ ilə işarə edək və

$$\int_{R_{k,+}^n} \left|A_{B_{k,n}} f(x)\right|^p \omega(x)(x')^\gamma \, dx \le C_1 \int_{R_{k,+}^n} |f(x)|^p \omega(x)(x')^\gamma \, dx$$

bərabərsizliyi doğrudur.

ii₁) f və ε -dan asılı olmayan elə C_2 sabiti var ki,
istənilən $f \in L_{p,\omega}\left(R_{k,+}^n\right)$, $1 \le p < \infty$, $\lambda > 0$ üçün

$$\int_{\left\{x \in R_{k,+}^n : \left|A_{B_{k,n},\varepsilon} f(x)\right| > \lambda\right\}} \omega_1(x)(x')^\gamma \, dx \le \frac{C_2}{\lambda} \int_{R_{k,+}^n} |f(x)| \omega(x)(x')^\gamma \, dx$$

bərabərsizliyi doğrudur.

ii₁) $L_{1,\omega,\gamma}\left(R_{k,+}^n\right)$-da ,$1 \le p < \infty$, $\lim_{\varepsilon \to 0} A_{B_{k,n},\varepsilon} f(x)$ limiti var, onu $A_{B_{k,n}} f$ ilə işarə edək və

$$\int_{\left\{x \in R_{k,+}^n : \left|A_{B_{k,n}} f(x)\right| > \lambda\right\}} \omega_1(x)(x')^\gamma \, dx \le \frac{C_2}{\lambda} \int_{R_{k,+}^n} |f(x)| \omega(x)(x')^\gamma \, dx$$

bərabərsizliyi doğrudur.

1.5-də $p-$tipli $B_{k,n}$ -sinqulyar operatorun Makenxaupt sinifindən olan çəkilər üçün çəkili $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega,\gamma}\right)-$ məhdudluğu isbat edilmişdir.
.

Tərif 2. ($p-$tipli $B_{k,n}$ -sinqulyar operator). Tutaq ki, $1 < p < \infty$. T subxətti operatorunu o vaxt $p-$tipli $B_{k,n}$ -sinqulyar operator adlandıracağıq ki,

1) istənilən $x \in R_{k,+}^n$ və $r > 0$ üçün T operatoru

$$\chi_{E(x,r)}(z) \left| T\left(f \chi_{R_{k,+}^n \setminus E(x,2r)}\right)(z) \right| \le C \chi_{E(x,r)}(z) \int_{R_{k,+}^n \setminus E(x,2r)} T^z |y|^{-n-|\gamma|} |f(y)| (y')^\gamma \, dy \qquad (3)$$

bərabərsizliyini ödəyir.

2) T operatoru $L_{p,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasında məhdud təsir göstərir.

Tərif 3. (zəif $p-$tipli $B_{k,n}$-sinqulyar operator). Tutaq ki, $1 \le p < \infty$. T subxətti operatorunu o vaxt zəif $p-$tipli $B_{k,n}$-sinqulyar operator adlandıracağıq ki,

1) T operatoru (3) bərabərsizliyini ödəyir;

2) T operatoru $L_{p,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasından $WL_{p,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasına məhdud təsir göstərir.

Tərif 4. ($(p,q)-$tipli $B_{k,n}$-potensial operator). Tutaq ki, $1 < p < q < \infty$. $T_\alpha, 0 < \alpha < n+|\gamma|$ subxətti operatorunu o vaxt $(p,q)-$tipli $B_{k,n}$-potensial operator adlandıracağıq ki,

1) istənilən $x \in R_{k,+}^n$ və $r > 0$ üçün T_α operatoru

$$\chi_{E(x,r)}(z)\left|T_\alpha\left(f\chi_{R_{k,+}^n \setminus E(x,2r)}\right)(z)\right| \le$$

$$\le C\chi_{E(x,r)}(z)\int_{R_{k,+}^n \setminus E(x,2r)} T^z|y|^{\alpha-n-|\gamma|}|f(y)|(y')^\gamma\, dy \tag{4}$$

bərabərsizliyini ödəyir.

2) T_α operatoru $L_{p,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasından $L_{q,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasına məhdud təsir göstərir.

Tərif 5. (zəif $(p,q)-$tipli $B_{k,n}$-potensial operator). Tutaq ki, $1 \le p < q < \infty$. $T_\alpha, 0 < \alpha < n+|\gamma|$ subxətti operatorunu o vaxt zəif $(p,q)-$tipli $B_{k,n}$-potensial operator adlandıracağıq ki,

1) T_α operatoru (4) bərabərsizliyini ödəyir.

2) T_α operatoru $L_{p,\gamma}\left(R_{k,+}^n\right)$ fəzsından $WL_{q,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasına məhdud təsir göstərir.

Teorem 5. Tutaq ki ω funksiyası (2) şərtini ödəyən çəki funksiyasıdır. Onda :

(a) Əgər T operatoru $p-$tipli $B_{k,n}$-sinqulyar operator, $1 < p < \infty$ və $\omega \in A_{p,\gamma}\left(R_{k,+}^n\right)$ olarsa, onda T operatoru $L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasında məhdud təsir göstərir, belə ki, f-dən asılı olmayan elə c_3 sabiti var ki, istənilən $f \in L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$ üçün

$$\int_{R_{k,+}^n}|Tf(x)|^p\,\omega(x)(x')^\gamma\, dx \le c_3\int_{R_{k,+}^n}|f(x)|^p\,\omega(x)(x')^\gamma\, dx$$

bərabərsizliyi doğrudur.

(b) Əgər T operatoru zəif $p-$tipli $B_{k,n}$-sinqulyar operator, $1 \le p < \infty$ və $\omega \in A_{p,\gamma}\left(R_{k,+}^n\right)$ olarsa, onda T operatoru $L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasından $WL_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasına məhdud təsir göstərir, belə ki, f və λ-dan asılı olmayan elə c_4 sabiti var ki, istənilən $f \in L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$ üçün

$$\int_{\left\{x\in R_{k,+}^n:\,|Tf(x)|>\lambda\right\}}\omega(x)(x')^\gamma\, dx \le \frac{c_4}{\lambda^p}\int_{R_{k,+}^n}|f(x)|^p\,\omega(x)(x')^\gamma\, dx.$$

bərabərsizliyi doğrudur.

Tərif 6. Tutaq ki, K funksiyası $R_{k,+}^n$-da təyin olunmuşdur. Aşağıdakı şərtlər ödənərsə K-nı $B_{k,n}$ sinqulyar nüvə adlandıracağıq:

i) $K \in C^\infty\left(R_{k,+}^n\right)$;

ii) istənilən $r > 0$, $x \in R_{k,+}^n$ üçün $K(rx) = r^{-n-|\gamma|}K(x)$;

iii) $\int_{S_{k,+}} K(x)(x')^\gamma\, d\sigma(x) = 0$.

Nəticə 3. Tutaq ki, $p \in (1,\infty)$, T (1) bərabərliyi ilə təyin olunan $B_{k,n}$ sinqulyar nüvəli $B_{k,n}$ sinqulyar operatordur , $\omega \in A_{p,\gamma}\left(R_{k,+}^n\right)$ çəki funksiyası (2) şərtini ödəyir. Onda T operatoru $L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$-da məhdud təsir göstərir.

Nəticə 4. Tutaq ki, $p \in [1,\infty)$, T (1) bərabərliyi ilə təyin olunan $B_{k,n}$ sinqulyar nüvəli $B_{k,n}$ sinqulyar operatordur , $\omega \in A_{p,\gamma}\left(R_{k,+}^n\right)$ çəki funksiyası (2) şərtini ödəyir. Onda T operatoru $L_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasından $WL_{p,\omega,\gamma}\left(R_{k,+}^n\right)$ fəzasına məhdud təsir göstərir.

İkinci fəsildə $p-$tipli $B_{k,n}$-sinqulyar operator və $(p,q)-$tipli $B_{k,n}$-potensial operator üçün ikiçəkili bərabərsizliklərə baxılmışdır.

2.1-də $p-$tipli $B_{k,n}$-sinqulyar operator üçün çəkili L_p-qiymətləndirmələr alınmışdır.

Teorem 6. Tutaq ki, $p\in(1,\infty)$ və T operatoru $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur. Bundan başqa, $\omega(x),\omega_1(x)$, $x\in R^n_{k,+}$ çəki funksiyalarıdır və aşağıdakı üç şərti ödəyir:

(a) elə $b>0$ var ki, sanki bütün $x\in R^n_{k,+}$ üçün

$$\sup_{|x|/8\le|y|<8|x|}\omega_1(y)\le b\omega(x),$$

(b)

$$A\equiv\sup_{r>0}\left(\int_{{}^{C}E(0,2r)}\omega_1(x)|x|^{-(n+|\gamma|)p}(x')^{\gamma}dx\right)\left(\int_{E(0,r)}\omega^{1-p'}(x)(x')^{\gamma}dx\right)^{p-1}<\infty,$$

(c)

$$B\equiv\sup_{r>0}\left(\int_{E(0,r)}\omega_1(x)(x')^{\gamma}dx\right)\left(\int_{{}^{C}E(0,2r)}\omega^{1-p'}(x)|x|^{-(n+|\gamma|)p'}(x')^{\gamma}dx\right)^{p-1}<\infty.$$

Onda c sabiti var ki, istənilən $f\in L_{p,\omega,\gamma}(R^n_{k,+})$ üçün

$$\int_{R^n_{k,+}}|Tf(x)|^p\omega_1(x)(x')^{\gamma}dx\le c\int_{R^n_{k,+}}|f(x)|^p\omega(x)(x')^{\gamma}dx$$

bərabərsizliyi doğrudur.

Teorem 7. Tutaq ki, $p\in[1,\infty)$ və T operatoru zəif $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur. Bundan başqa, $\omega(x),\omega_1(x)$ funksiyaları $R^n_{k,+}$-da çəki funksiyalarıdır və *(a)*, *(b)*, *(c)* şərtlərini ödəyir. Onda elə c sabiti var ki, istənilən $f\in L_{p,\omega,\gamma}(R^n_{k,+})$ və $\lambda>0$ üçün

$$\int_{\{x\in R^n_{k,+}:|Tf(x)|>\lambda\}}\omega_1(x)(x')^{\gamma}dx\le\frac{c}{\lambda^p}\int_{R^n_{k,+}}|f(x)|^p\omega(x)(x')^{\gamma}dx$$

bərabərsizliyi doğrudur.

Teorem 8. Tutaq ki, $1\le m<k\le n$, $p\in(1,\infty)$ üçün T operatoru $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur və $p\in[1,\infty)$ üçün T operatoru zəif $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur. Bundan başqa $\omega(x_{1,m})$, $\omega_1(x_{1,m})$ R^m_{++}-da çəki funksiyalarıdır və aşağıdakı üç şərti ödəyir:

($a_{m,k}$) elə $b>0$ var ki, sanki bütün $x_{1,m}\in R^n_{k,+}$ üçün,

$$\sup_{|x_{1,m}|/8\le|y_{1,m}|<8|x_{1,m}|}\omega_1(y_{1,m})\le b\omega(x_{1,m}),$$

($b_{m,k}$)

$$A_{m,k}\equiv\sup_{r>0}\left(\int_{{}^{C}E_m(0,2r)}\omega_1(x_{1,m})|x_{1,m}|^{-(m+|\gamma_{1,m}|)p}x_{1,m}^{\gamma_{1,m}}dx_{1,m}\right)\times$$

$$\times\left(\int_{E_m(0,r)}\omega^{1-p'}(x_{1,m})x_{1,m}^{\gamma_{1,m}}dx_{1,m}\right)^{p-1}<\infty$$

($c_{m,k}$)

$$B_{m,k}\equiv\sup_{r>0}\left(\int_{E_m(0,r)}\omega_1(x_{1,m})x_{1,m}^{\gamma_{1,m}}dx_{1,m}\right)\times$$

$$\times\left(\int_{{}^{C}E_m(0,2r)}\omega^{1-p'}(x_{1,m})|x_{1,m}|^{-(m+|\gamma_{1,m}|)p'}x_{1,m}^{\gamma_{1,m}}dx_{1,m}\right)^{p-1}<\infty.$$

Onda $p\in(1,\infty)$ üçün T operatoru $L_{p,\omega,\gamma}(R^n_{k,+})$-dən $L_{p,\omega_1,\gamma}(R^n_{k,+})$-nə və $p\in[1,\infty)$ üçün isə $L_{1,\omega,\gamma}(R^n_{k,+})$-dən $WL_{1,\omega_1,\gamma}(R^n_{k,+})$-nə məhdud təsir göstərir.

Nəticə 5. Tutaq ki, $1\le m<k\le n$ və T $B_{k,n}$ maksimal və ya $B_{k,n}$ sinqulyar operatordur. Bundan başqa $\omega(x_{1,m})$, $\omega_1(x_{1,m})$ R^m_{++}-da çəki funksiyalarıdır və *($a_{m,k}$)*, *($b_{m,k}$)*, *($c_{m,k}$)* şərtlərini ödəyirlər. Onda $p\in(1,\infty)$ üçün T operatoru $L_{p,\omega,\gamma}(R^n_{k,+})$-dən $L_{p,\omega_1,\gamma}(R^n_{k,+})$-nə və $p\in[1,\infty)$ üçün isə $L_{p,\omega,\gamma}(R^n_{k,+})$-dən $WL_{p,\omega_1,\gamma}(R^n_{k,+})$-nə məhdud təsir göstərir.

Teorem 9. Tutaq ki, $1\le m<k\le n$, $p\in(1,\infty)$ üçün T operatoru $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur və $p\in[1,\infty)$ üçün T operatoru zəif $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur. Bundan başqa $\omega(x_{m+1,n})$,

$\omega_1(x_{m+1,n})$ funksiyaları $R^{n-m}_{k-m,+}$-da çəki funksiyalarıdır və aşağıdakı üç şərti ödəyir:

(a_{m+1,k}) elə $b>0$ var ki, sanki bütün $x_{m+1,n}\in R^{n-m}$ üçün,

$$\sup_{|x_{m+1,n}|/8\le|y_{m+1,n}|<8|x_{m+1,n}|}\omega_1(y_{m+1,n})\le b\omega(x_{m+1,n}),$$

$(b_{m+1,k})$ $$A_{m+1,k}\equiv\sup_{r>0}\left(\int_{E_{n-m}(0,r)}\omega^{1-p'}(x_{m+1,n})x_{m+1,k}^{\gamma_{m+1,k}}dx_{m+1,n}\right)^{p-1}\times$$

$$\times\int_{{}^C E_{n-m}(0,2r)}\omega_1(x_{m+1,n})|x_{m+1,n}|^{-(n-m+|\gamma_{m+1,k}|)p}x_{m+1,k}^{\gamma_{m+1,k}}dx_{m+1,n}<\infty,$$

$(c_{m+1,k})$ $$B_{m+1,k}\equiv\sup_{r>0}\left(\int_{E_{n-m}(0,r)}\omega_1(x_{m+1,n})x_{m+1,k}^{\gamma_{m+1,k}}dx_{m+1,n}\right)\times$$

$$\times\left(\int_{{}^C E_{n-m}(0,2r)}\omega^{1-p'}(x_{m+1,n})|x_{m+1,n}|^{-(n-m+|\gamma_{m+1,k}|)p'}x_{m+1,k}^{\gamma_{m+1,k}}dx_{m+1,n}\right)^{p-1}<\infty.$$

Onda $p\in(1,\infty)$ üçün T operatoru $L_{p,\omega,\gamma}(R^n_{k,+})$-dən $L_{p,\omega_1,\gamma}(R^n_{k,+})$-nə və $p\in[1,\infty)$ üçün isə $L_{p,\omega,\gamma}(R^n_{k,+})$-dən $WL_{p,\omega_1,\gamma}(R^n_{k,+})$ -nə məhdud təsir göstərir.

Teorem 10. Tutaq ki, $p\in(1,\infty)$ və T operatoru $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur.Bundan başqa $\omega(t)$ $(0,\infty)$-da çəki funksiyasıdır, $\omega_1(t)$ $(0,\infty)$-da müsbət, artan çəki funksiyasıdır və $(\omega(|x|),\omega_1(|x|))$ çəki cütlüyü *(a), (b)* şərtlərini ödəyirlər. Onda elə c sabiti var ki, istənilən $f\in L_{p,\omega,\gamma}(R^n_{k,+})$ üçün

$$\int_{R^n_{k,+}}|Tf(x)|^p\omega_1(|x|)(x')^\gamma dx\le c\int_{R^n_{k,+}}|f(x)|^p\omega(|x|)(x')^\gamma dx.$$

(6)
bərabərsizliyi doğrudur.

Teorem 11. Tutaq ki, $p\in(1,\infty)$ və T operatoru $p-$tipli $B_{k,n}$-sinqulyar operatordur. Bundan başqa $\omega(t)$ $(0,\infty)$-da çəki funksiyasıdır, $\omega_1(t)$ $(0,\infty)$-da müsbət, azalan çəki funksiyasıdır və $(\omega(|x|),\omega_1(|x|))$ çəki cütlüyü *(a), (c)* şərtlərini ödəyirlər. Onda (6) bərabərsizliyi ödənər.

2.2-də $(p,q)-$tipli $B_{k,n}$-potensial operator üçün ikiçəkili bərabərsizliklər isbat edilmişdir.

Teorem 12. Tutaq ki, $1<p<q<\infty$ və T_α operatoru $(p,q)-$tipli $B_{k,n}$-potensial operatordur. Bundan başqa, $\omega(x),\omega_1(x)$ $R^n_{k,+}$-da çəki funksiyalarıdır və aşağıdakı üç şərti ödəyir:

(a_1) elə $b>0$ var ki, sanki bütün $x\in R^n_{k,+}$ üçün,

$$\sup_{|x|/8\le|y|<8|x|}\omega_1(y)^{1/q}\le b\omega(x)^{1/p},$$

(b_1)

$$A\equiv\sup_{r>0}\left(\int_{{}^C E(0,2r)}\omega_1(x)|x|^{-(n+|\gamma|-\alpha)q}(x')^\gamma dx\right)^{\frac1q}\left(\int_{E(0,r)}\omega^{1-p'}(x)(x')^\gamma dx\right)^{\frac1{p'}}<\infty$$

,

(c_1)

$$B\equiv\sup_{r>0}\left(\int_{E(0,r)}\omega_1(x)(x')^\gamma dx\right)^{\frac1q}\left(\int_{{}^C E(0,2r)}\omega^{1-p'}(x)|x|^{-(n+|\gamma|-\alpha)(1-p')}(x')^\gamma dx\right)^{\frac1{p'}}<\infty$$

.

Onda elə c sabiti var ki, istənilən $f\in L_{p,\omega,\gamma}(R^n_{k,+})$ üçün

$$\left(\int_{R^n_{k,+}}|T_\alpha f(x)|^q\omega_1(x)(x')^\gamma dx\right)^{1/q}\le c\left(\int_{R^n_{k,+}}|f(x)|^p\omega(x)(x')^\gamma dx\right)^{1/p}$$

bərabərsizliyi doğrudur.

Teorem 13. Tutaq ki, $1\le p<q<\infty$ və T_α operatoru zəif $(p,q)-$tipli $B_{k,n}$-potensial operatordur. Bundan başqa, $\omega(x),\omega_1(x)$ $R^n_{k,+}$-da çəki funksiyalarıdır və $(a_1),(b_1),(c_1)$ şərtlərini ödəyirlər.

Onda elə c sabiti var ki, istənilən $f\in L_{p,\omega,\gamma}(R^n_{k,+})$ və $\lambda>0$ üçün

$$\left(\int_{\left\{x\in R^n_{k,+}:\,|T_\alpha f(x)|>\lambda\right\}} \omega_1(x)(x')^\gamma\, dx \right)^{1/q} \le \frac{c}{\lambda^q} \left(\int_{R^n_{k,+}} |f(x)|^p\, \omega(x)(x')^\gamma\, dx \right)^{1/p}.$$

bərabərsizliyi doğrudur.

Nəticə 6. Tutaq ki, $1 < p < q < \infty$, $0 < \alpha < n + |\gamma|$ və $1/p - 1/q = \alpha/(n+|\gamma|)$. Bundan başqa, $\omega(x)$, $\omega_1(x)$ funksiyaları $R^n_{k,+}$-da çəki funksiyalarıdır və *(a₁),(b₁), (c₁)* şərtlərini ödəyirlər. Onda $I^\alpha_{B_{k,n}}$ operatoru $L_{p,\omega,\gamma}\left(R^n_{k,+}\right)$ fəzasından $L_{q,\omega_1,\gamma}\left(R^n_{k,+}\right)$ fəzasına məhdud təsir göstərir.

Nəticə 7. Tutaq ki, $1 \le p < q < \infty$, $0 < \alpha < n + |\gamma|$ və $1/p - 1/q = \alpha/(n+|\gamma|)$. Bundan başqa, $\omega(x)$, $\omega_1(x)$ funksiyaları $R^n_{k,+}$-da çəki funksiyalarıdır və *(a₁),(b₁), (c₁)* şərtlərini ödəyirlər. Onda $I^\alpha_{B_{k,n}}$ operatoru $L_{p,\omega,\gamma}\left(R^n_{k,+}\right)$ fəzasından $WL_{q,\omega_1,\gamma}\left(R^n_{k,+}\right)$ fəzasına məhdud təsir göstərir.

Teorem 14. Tutaq ki, $1 < p < q < \infty$ və T_α operatoru $(p,q)-$tipli $B_{k,n}$-potensial operatordur.Bundan başqa $\omega(t)$ $(0,\infty)$-da çəki funksiyasıdır, $\omega_1(t)$ $(0,\infty)$-da müsbət,artan çəki funksiyasıdır və $\left(\omega(|x|), \omega_1(|x|)\right)$ çəki cütlüyü *(a₁),(b₁)* şərtlərini ödəyirlər. Onda f-dən asılı olmayan elə c sabiti var ki, istənilən $f \in L_{p,\omega,\gamma}\left(R^n_{k,+}\right)$ üçün

$$\left(\int_{R^n_{k,+}} |Tf(x)|^q\, \omega_1(|x|)(x')^\gamma\, dx \right)^{1/q} \le c \left(\int_{R^n_{k,+}} |f(x)|^p\, \omega(|x|)(x')^\gamma\, dx \right)^{1/p}. \tag{7}$$

bərabərsizliyi doğrudur.

Teorem 15. Tutaq ki, $1 < p < q < \infty$ və T_α operatoru $(p,q)-$tipli $B_{k,n}$-potensial operatordur.Bundan başqa $\omega(t)$ $(0,\infty)$-da çəki funksiyasıdır, $\omega_1(t)$ $(0,\infty)$-da müsbət,azalan çəki funksiyasıdır və $\left(\omega(|x|), \omega_1(|x|)\right)$ çəki cütlüyü *(a₁),(c₁)* şərtlərini ödəyirlər. Onda (7) bərabərsizliyi doğrudur.

Müəllif məsələlərin qoyuluşuna, əldə olunmuş nəticələrin müzakirəsinə və elmi işə daimi diqqətinə görə öz elmi rəhbəri, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor V.S.Quliyevə öz dərin minnətdarlığını bildirir.

Dissertasiyadakı əsas nəticələr aşağıdakı işlərdə çap olunmuşdur:

1. **Isayev F.A. and Safarov Z.V.** Two-weighted inequality for some sublinear operators in Lebesgue spaces, associated with the Laplase-Bessel differential operators. Operators in Morrey-type spaces and applications OMTSA, 2011. Dedicated to 70th birthday of prof. V.I. Burenkov, Ahi Evran University, Kirsheir, Turkey, 2011, may 20-27, p.63,
2. **Isayev F.A. and Safarov Z.V.** Two -weighted inequality for some $B_{k,n}$-singular operators in weighted Lebesgue spaces. "Functions theory and problems of hormonic analysis ". Proceedings of the International conferanct devoted to the 100-th anniversary of academician İ.İ.İbrahimov, Baku, 2012, p.117-120.
3. **Guliyev V.S. and Isayev F.A.** The two-weighted inequalities for sublinear operators generated by singular integrals in weighted Lebesgue spaces. Acta Applicandae Mathematicae. 2013,v.127, No.1,p.1-16 .
4. **Isayev F.A. and Safarov Z.V. W**eighted inequality for singular integrals in Lebesgue spaces, associated with the Laplase-Bessel differential operators. Proceedings of NAS of Azerbaijan, 2012, v.36, No.1, p.61-68.
5. **Isayev F.A. and Safarov Z.V. W**eighted inequality for fractional maximal functions and fractional integrals in the bessel setting. News APU, Baki, 2013, No.4, p.19-24.
6. **Isayev F.A. W**eighted inequality for sublinear operators, associated wit the Laplase-bessel differential operators. News APU, Baki, 2014, No.3, p.23-29.
7. **Guliyev V.S., Isayev F.A. and Safarov Z.V.** Two -weighted inequality for *p*-admissible $B_{k,n}$-singular operators in weighted Lebesgue spaces. Proceedings of NAS of Azerbaijan, 2014, v.40, No.1, p.122-146.

ФАТАИ АБДУЛГАМИД оглы ИСАЕВ

ИССЛЕДОВАНИЯ ДВУХВЕСОВЫХ НЕРАВЕНСТВ ДЛЯ ИНТЕГРАЛЬНЫХ ОПЕРАТОРОВ ФУРЬЕ-БЕССЕЛЯ

АННОТАЦИЯ

В диссертации исследованы некоторые свойства максимальных функций, дробных максимальных функций, потенциалов Рисса и некоторых классов сублинейных операторов, порожденные дифферен-циальным оператором Лаплас-Бесселя.

Основные результаты диссертации состоят в следующем:

- Доказана весовая $\left(L_{p,\omega,\gamma}, L_{q,\omega,\gamma}\right)-$ограниченность $B_{k,n}$ - дробно-максимальных функций, $1/p-1/q=\alpha/(n+|\gamma|)$.
- Получен аналог неравенств типа Велланда $B_{k,n}$ - потенциала Рисса.
- Доказана весовая $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega,\gamma}\right)-$ограниченность $p-$допустимых $B_{k,n}$-сингулярных операторов для весов из класса Макенхаупта.
- Получены двухвесовые $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega_1,\gamma}\right)$ неравенства для $p-$допустимых $B_{k,n}$-сингулярных операторов.
- Получены двухвесовые слабые $\left(L_{1,\omega,\gamma}, WL_{1,\omega_1,\gamma}\right)$ неравенства для $p-$допустимых $B_{k,n}$ -сингулярных операторов.
- Получены двухвесовые $\left(L_{p,\omega,\gamma}, L_{q,\omega_1,\gamma}\right)$ неравенства для $(p,q)-$ допустимых $B_{k,n}$ -потенциальных операторов.
- Получены двухвесовые слабые $\left(L_{1,\omega,\gamma}, WL_{q,\omega_1,\gamma}\right)$ неравенства для $(p,q)-$ допустимых $B_{k,n}$ -потенциальных операторов.

FATAI ABDULHAMID oglu ISAYEV

INVESTIGATIONS TWO-WEIGHTED INEQUALITIES FOR FOURIER-BESSEL INTEGRAL OPERATORS

ABSTRACT

In the dissertation are studied some properties of the maximal functions, fractional maximal functions, Riesz potentials and some classes sublinear operators, associated by the Laplace-Bessel differential operators. The principal results of the dissertation are the followings:

- For the $B_{k,n}$ fractional maximal functions weighted $\left(L_{p,\omega,\gamma}, L_{q,\omega,\gamma}\right)$, $1/p-1/q=\alpha/(n+|\gamma|)$ inequalities is proved.
- Analogue of the theorems of Welland for the $B_{k,n}$ Riesz potential is obtained.
- For the *p*-admissible $B_{k,n}$ singular operators weighted $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega,\gamma}\right)$ boundedness with weights from Muchenhoupt classes is proved.
- For the *p*-admissible $B_{k,n}$ singular operators two-weighted $\left(L_{p,\omega,\gamma}, L_{p,\omega_1,\gamma}\right)$ inequalities is obtained.
- For the *p*-admissible $B_{k,n}$ singular operators two-weighted weak $\left(L_{1,\omega,\gamma}, WL_{1,\omega_1,\gamma}\right)$ inequalities is proved.
- For the $(p,q)-$admissible $B_{k,n}$ potential operators two-weighted $\left(L_{p,\omega,\gamma}, L_{q,\omega_1,\gamma}\right)$ inequalities is obtained.
- For the $(p,q)-$admissible $B_{k,n}$ potential operators two-weighted weak $\left(L_{1,\omega,\gamma}, WL_{q,\omega_1,\gamma}\right)$ inequalities is proved.